# Onun üçün hər tamaşa bir tarixdir

Keçən əsrin 60-cı illərindən üzübəri səhnəyə qoyduğu tamaşaları ilə şöhrət qazanan rejissordur. Aktyorluqdan başlayaraq teatr sənətinin əlifbasını “a” hərfindən sonadək mükəmməl öyrənib bilən sənətkardır. Ömrünün səksəninci ilinin tamamında da əli işdən-gücdən soyumayan, qəlbi arzularla döyünən insandır.



Bu, rejissor Ağakişi Kazımovdur. Görkəmli sənətkar 1935-ci ildə Ağcabədidə anadan olub, 1987-ci ildə Azərbaycanın əməkdar incəsənət xadimi, 2000-ci ildə xalq artisti adına layiq görülüb. 2003-cü ildən isə Prezidentin fərdi təqaüdçüsüdür.

Hər hansı bir sənətkarın yaradıcılıq yolundan, qazandığı şan-şöhrətdən danışarkən ilk növbədə onu yetişdirən məktəb, universitet və istedadını kəşf edib üzə çıxaran, ona yüksəliş yolunu göstərən müəllimləri yada düşür.

Ağakişi müəllimi böyük sənətə gətirən yol M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsindən başlanıb. 1952-ci ildən o, burada ustad sənətkarlardan - Rza Təhmasibdən, Mehdi Məmmədovdan və Məhərrəm Haşımovdan aktyor sənətinin sirlərini öyrənib. Nəyə qadir olduğu da özünü bu zaman göstərib. Hələ gənc yaşlarından obrazı qavramağı və duymağı, zəhmətkeşliyi və biliklərə yiyələnmək istəyi ilə diqqəti cəlb edib. C.Məmmədquluzadənin “Ölülər”ində İsgəndərin, F.Şillerin “Qaçaqlar”ında Şpigelberqin, G.Mdivaninin “Vətən namusu”nda Sardionun rollarını oynayarkən bu sahəyə təsadüfi gəlmədiyini təsdiqləyib.

19 yaşlı Ağakişi o vaxt M.Əzizbəyovun adını daşıyan Akademik teatrda Cəfər Cabbarlının “1905-ci ildə” dramında 60 yaşlı Murad kişinin obrazını yaradıb və bununla da teatrın aktyor ansamblına daxil olaraq püxtələşməyə, peşəkarlıq toplamağa başlayıb. On il bu məbəddə M.Davudova, Ə.Ələkbərov, F.Qədri, R.Əfqanlı, B.Şəkinskaya, K.Ziya, S.Hacıyeva, H.Qurbanova, İ.Osmanlı kimi güclü sənətkarlarla bir yerdə çalışır. Eyni zamanda, Azərbaycan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən “Gənclik” teatrına başçılıq edir və onun rejissorluğu ilə həmin teatrda C.Cabbarlının “Sevil”, N.Vəzirovun “Müsibəti-Fəxrəddin”, M.F.Axundzadənin “Müsyö Jordan və dərviş Məstəli şah” əsərləri oynanılır.

Ali məktəbi bitirəndə Ağakişi Kazımov artıq yetişmiş aktyor idi. Odur ki, S.Rüstəmin “Qaçaq Nəbi”sində Vəli, H.Cavidin “Şeyx Sənan”ında Ramiz, H.Mehdinin “Cavanşir”ində Fərid, C.Cabbarlının “Almas”ında Barat, Ə.Məmmədxanlının “Şirvan gözəli”ndə Fərəc obrazlarını yaradaraq tamaşaçıların rəğbətini qazanır.

Bir-birindən parlaq, uğurlu obrazları canlandıran gənc aktyor get-gedə teatra, teatr sənətinə daha dərindən bağlanır. Çox keçmir ki, A.Parnisin “Gözəllik və sevgi adası” tamaşasının quruluşunda rejissor Tofiq Kazımovun assistenti olur. Bundan sonra Tofiq müəllim ona rejissorluq təhsili almağı məsləhət görür.

Bu məsləhət onun arzuları ilə üst-üstə düşdüyündən Ağakişi Kazımov Sankt-Peterburq (o vaxt Leninqrad adlanırdı) Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olur. O zaman institutun nəzdində xüsusi teatr fəaliyyət göstərirdi. Bu teatr tələbələrə ixtisaslaşdıqları sahə üzrə səriştə və bilgilərə yiyələnməkdə yaxından kömək edirdi. Ağakişi də düşünmədən həmin teatrın işinə qoşulur. Burada həm bir sıra rollarda oynayır, həm də rejissor kimi özünü sınağa çəkir. Beləcə, Sankt-Peterburq onun yaradıcılığının başlanğıcına növbəti mərhələ kimi daxil olur. SSRİ xalq artisti Q.A.Tovstonoqovun göstəriş və tövsiyələrini eşidir, böyük sənətkarın neçə-neçə əsəri onun gözləri önündə tamaşaya qoyulur. Teatr tənqidçiləri yazırlar ki, Tovstonoqovun yaradıcılıq həyatı, sənətkarlıq mövqeyi Ağakişidə realist və müasir ruhlu sənət prinsipini formalaşdırır.

Gənc rejissor mükəmməl nəzəri-praktiki biliklərə yiyələnir və diplom tamaşasını Tatarıstanda hazırlamağı qərara alır. Q.Kamal adına Kazan Dövlət Akademik Dram Teatrında səhnəyə qoyduğu “Aydın” birinci gündən uğur qazanır və rejissorun ilk yaradıcılıq nailiyyəti olur. O zaman sovet respublikaları dramaturqlarının əsərlərinə keçirilən baxış-festivalda “Aydın” 127 tamaşa arasında qalib çıxır və rejissor işinə görə SSRİ Mədəniyyət Nazirliyinin birinci mükafatına layiq görülür.

A.Kazımov eləcə də V.Şekspirin “Çarəyə çarə” komediyasında rejissor assistenti olur, “Duel” (M.Baciyev) əsərinə isə rejissorluq edir. Bu səhnə əsərləri də anşlaqla qarşılanır.

Yeri gəlmişkən qeyd edək ki, Cabbarlı yaradıcılığı Ağakişi Kazımova həmişə çox doğma və yaxın olub. Xüsusilə “Aydın”la. Bunu özü də dəfələrlə etiraf edib. “Aydın” tamaşasının müvəffəqiyyətinin əsas kökləri nə ilə bağlı idi? Dramaturq fikri, dərin ictimai ideya, güclü xarakterlər uğurun özülü idisə, rejissor işindəki çağdaşlıq, klassik irsə novator münasibət bunun əsas təkanverici amili idi.

Rejissor “Aydın”a sonralar da müraciət edir. Burada o, belə bir qənaətə gəlir ki, həyat ayrı-ayrı adamların - nə Aydınların, nə Gültəkinlərin, nə də onlara əziyyət verən Dövlət bəylərin deyil, xalqındır. Beləliklə, rejissor insan və zaman, insan və cəmiyyət probleminin həllinə çalışır və buna nail olur. Bir məqamı da yaddan çıxarmaq olmaz ki, “Aydın” pyesi rejissor işi nöqteyi-nəzərindən mürəkkəb və müəyyən dərəcədə “təhlükəlidir”. O mənada təhlükəlidir ki, rejissor çox asanlıqla təsirə qapılıb iki bədbəxt insanın taleyi haqqında səciyyəvi melodramatik bir tamaşa yaratmaq yoluna düşə bilərdi. Ağakişi Kazımov isə bu yolla getməmiş, əsərin ictimai mündəricəsini diqqət mərkəzinə çəkmişdir.

1969-cu ildə o, H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına direktor və baş rejissor göndərilir. Bununla yanaşı, Bakının teatr həyatında iştirak edərək rejissor kimi fəaliyyət göstərir. M.F.Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrında Şəfiqə Axundovanın “Gəlin qayası” operasının, Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Ü.Hacıbəylinin “Arşın mal alan” və İ.Dunayevskinin “Xoşbəxtliyə gedən yol” operettalarının quruluşunu verir.

A.Kazımov 1975-1983-cü illərdə M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında çalışır. Bu illər ərzində yeni əsərlər tamaşaya qoyur: “Hacı Qəmbər” (N.B.Vəzirov), “Fırtınadan doğulmuşlar” (İ.Coşqun), “Sirli dəyirman” (F.Məmmədov), “Kiçik torpaqda üç gün” (Ş.Xurşud), “Yaşasın günəş” (A.Aslanov) və s.

Ağakişi müəllim müxtəlif vaxtlarda respublikanın ayrı-ayrı teatrlarında bir çox əsərlərə quruluş versə də, əslində Akademik teatra qayıtmaq arzusunda idi. Hələ həmin teatra işə qəbul olunmazdan əvvəl burada N.Dumbadzenin “Darıxma, ana!” və İ.Əfəndiyevin “Qəribə oğlan” pyeslərinə quruluş verir. Hər iki tamaşa teatr nəzəriyyəçilərinin böyük qiymətini alır. Vətənə, həyata məhəbbət hisslərini özündə cəmləşdirən “Darıxma, ana!”da obrazların mənəvi gərginliyi, daxili saflığı lirik boyalarla təsvir olunur. “Qəribə oğlan”da isə rejissor əsərin zahiri əlamətlərindən daha çox daxili aləmi ilə məşğul olur və həmin daxili həqiqətə nə qədər yaxınlaşa bilirsə, onun əsərə verəcəyi səhnə təcəssümü də bir o qədər orijinal olur.

Yazıçı Seyfəddin Dağlı “Kommunist” qəzetində “Darıxma, ana!” tamaşasına münasibət bildirərək yazırdı: “Ağakişi Kazımov öz işini müəllif fikrinin nəinki təkcə izahına yönəltmiş, hətta bu fikrin müəyyən dərəcədə qabardılmasına çalışmışdır. Tamaşanın əvvəldən sona qədər axıcı bir ahənglə getdiyi, mizanlar, dekorlar, geyimlər arasında mütənasib uyğunluq tapıldığı, habelə lakonik cizgilərlə səciyyəvi mənzərələr yaradıldığı rejissor işinin nailiyyəti sayılmalıdır”. Digər resenziyada isə göstərilirdi ki, rejissorun uğuru tamaşada nəcibliyin, gözəlliyin üstünlüyünün zahiri boyalarla, səthi və birtərəfli əks etdirilməməsidir. Bu, həqiqi estetik gözəllikdir, həyatın ziddiyyətlərini örtüb basdırmayan, vətəndaş cəsarəti ilə açıb göstərən, pisliyə və şərə qarşı ardıcıl, güzəştsiz, qəti mübarizədə yüksələn və qalib gələn, ona görə daha valehedici və daha əzəmətli olan estetik gözəllikdir. Əsərdə rejissor işi yüksək səviyyədə öz əksini tapmışdır.

Daha sonra A.Kazımov “Söhrab və Rüstəm” pyesini böyük zövqlə, emosional qüvvə ilə səhnəyə qoyur. Tamaşadakı hər gəlişdə, aktyorların hərəkətlərində rejissorun nəfəsi duyulur, səsi eşidilir. O, hər səhnəni mənalandırmağı, tamaşaçıları düşündürməyi bacarır. A.Kazımovun rejissorluq istedadının maraqlı cəhətlərindən biri də hadisələrin və müxtəlif xarakterli obrazların meydana gəlməsində mühüm rol oynayan mühiti doğru-dürüst araşdırmasıdır. Bu baxımdan görkəmli sənətkarın səhnəyə qoyduğu Nəbi Xəzrinin “Mirzə Şəfi Vazeh” tamaşası xüsusi vurğulanmalıdır. Sonra xalq yazıçısı İlyas Əfəndiyevin “Billur sarayda” əsəri tamaşaya hazırlanır. Ədibin bu lirik dramı öz ideya kəsəri və xarakterlərin rəngarəngliyi baxımından rejissorun axtarışlarına uyğun gəlir və səhnə əsəri böyük müvəffəqiyyət qazanır. Ona görə də yazılan rəylərdə A.Kazımovun forma və məzmunun qarşılıqlı əlaqəsini yaradan, dərin məna ifadə etməyi bacaran, müəyyən məkan və zaman daxilində hadisə və onun fəlsəfi mahiyyətini, obrazlı təbiətini ön xəttə çəkən mahir rejissor olduğu xüsusi göstərilir.

A.Kazımov İlyas Əfəndiyevin dramaturgiyasına, obrazlar silsiləsinə yaxından bələd olduğunu hər zaman qeyd edir. Bununla belə, ədibin əsərləri üzərində daha dərindən düşünür, pyesin müasirlik mahiyyətini səhnədə canlandırmaq üçün böyük axtarışlar aparırdı. Bu da göstərir ki, Ağakişi müəllim öz üzərində daim çalışan rejissordur.

Görüşlərimizin birində qeyd etdi ki, rejissorluq yolunda çəkdiyi əziyyət, qatlaşdığı çətinliklər, keçirdiyi sarsıntılar ona yeni qüvvə, enerji, ilham və sevinc gətirir. “Heç vaxt ömrümə nur çiləyən, inamımı doğruldan bu sevincdən, ilhamdan məhrum olmaq istəmirəm. Buna görə də ömrümün mənasına çevrilmiş bu yolda zəhmətə qatlaşmaqdan zövq alıram”. Bütün bunların nəticəsidir ki, 1991-ci ilin mayında xalq yazıçısı İlyas Əfəndiyevin “Billur sarayda” pyesi artıq 300-cü dəfə oynanıldı, alqışlarla qarşılandı və sənətsevərlərin rəğbətini qazandı.

Cabbarlı yaradıcılığının vurğunu olan rejissor bu dəfə “Od gəlini” pyesi üzərində çalışır. Bu dram əsəri teatrlarımızda müxtəlif rejissorlar tərəfindən bir neçə dəfə tamaşaya qoyulmuşdu. A.Tuqanov, İ.Hidayətzadə, Ə.Şərifov kimi görkəmli rejissorlardan sonra bu əsərə müraciət etmək və onun yeni səhnə təcəssümünə təşəbbüs göstərmək məsuliyyətli bir iş idi: “O zaman öhdəmizə düşən ağırlığı tam aydınlığı ilə dərk edirdik” - deyə, A.Kazımov xüsusi vurğuladı: “Bu əsərin səhnə həllində teatr sənətinin verdiyi bütün imkanlardan istifadə etdik. Pyesin süjetində xalq hərəkatı və ayrı-ayrı qəhrəmanların taleyi bir istiqamətdə birləşdirilmişdi. Əsərdə dramaturq heç bir yerdə ümumi ideya xatirinə xarakterlərin fərdi xüsusiyyətlərini zəiflətmirdi. İdeya xarakterlərdə, dramatik toqquşmalarda, ehtiraslar mübarizəsində meydana çıxırdı. Biz də müəllifin məqsədindən çıxış edərək obrazların canlı, inandırıcı, cazibəli olmasını, habelə hadisələrin dramatik gərginliyinin saxlanılması üçün bacardığımızı əsirgəmədik” - deyə fikrini tamamladı.

“Od gəlini” böyük uğur qazandı. O zaman hər kəs tamaşanın doğurduğu təəssüratdan danışır və yazırdı...

“Dar ağacı” tamaşası isə Bəxtiyar Vahabzadə ilə rejissorun dördüncü birgə işi idi. Yazıçı Cəmil Əlibəyov tamaşaya baxandan sonra yazırdı: “Ən nəhayət - əsərin səhnə müəllifi - rejissorun işi barədə. Görkəmli sənətçimiz, xalq artisti Ağakişi Kazımov vətənpərvərliklə satqınlıq məcrasını çoxsəsli orkestr dirijorluğu ilə də möhkəm vəhdətdə birləşdirə bilmişdir. Tamaşaçı ağır həyəcan yükü daşıdıqdan sonra zalı nikbinliklə tərk edir və onda belə bir inam yaranır ki, hər xəyanətin, xalqa hər pisliyin sonu vardır. Cümlə xəyanətlərə bais iblislər məhvə məhkumdur.... “Dar ağacı”ndan çıxardığımız nəticədə təkrarolunmaz və mütləq bir həqiqət də var. O da xalqın birliyi, yekdilliyi, millətdaxili etimad və sədaqətdir”.

Hər zaman aktual olan mövzunun ədibin təxəyyülündə özünəməxsus çalarlarla ərsəyə gəldiyini vurğulayan rejissor Ağakişi Kazımov isə fikrini belə ifadə edirdi: “Xəyanətin sonu heçdir. Aqşin öz mənliyini sübut etmək naminə millətinə, torpağına xəyanət etdi. Onların yadelli işğalçıların tapdağına çevrilməsinə razı oldu. Sonunu gördünüz. Aqşini elə satıldığı ərəblər dar ağacından asdı. Ərəblər sözü, əslində burada şərtidir. Ona görə də əsərin əksər hissəsində bu sözü yadelli ilə əvəz etmişdik”.

Rejissorun ədibin yazdıqlarından kənara çıxaraq önə çəkdiyi məqamlar da olur. Ağakişi Kazımov və Bəxtiyar Vahabzadə arasında bu baxımdan heç bir fikir ayrılığı olmayıb. Bu, özünü xüsusilə “Dar ağacı”nda göstərib. Rejissor da “insanın xəyanətdən dar ağacına qədər yolu”nu tamaşada əsas ana xətt kimi götürüb.

Qeyd etdiyimiz kimi, Ağakişi Kazımova müəlliflərlə işləmək qabiliyyəti müyəssər idi. O, tamaşaya qoyduğu əsərin ruhunu dərhal duyur, məqsədini aydın başa düşürdü. Bunu rejissorun xalq şairi Bəxtiyar Vahabzadə ilə birgə işinə nəzər saldıqda daha əyani şəkildə görmək mümkün idi. Ağakişi müəllim Bəxtiyar Vahabzadə dramaturgiyasının “təbiət”ini dərindən hiss edirdi. Bu da ona uzun illər şairlə yaradıcılıq əməkdaşlığı etmək, səhnəyə bir sıra əsərlər qoymaq imkanı vermişdi. Bu əməkdaşlıq maraqlı, dolğun, həyat həqiqətlərini təcəssüm etməsi ilə seçilən və təbii həyəcan gətirən əsərlərin yaranması ilə nəticələndi. Sözügedən amillər isə səhnə ilə rol arasında bir körpü salır ki, bu da müəlliflərin uğuru sayılır.

Bütün bunlar göstərir ki, Ağakişi Kazımov sıradan bir rejissor deyil. Onun taleyi Azərbaycanın həyatından, Azərbaycanın incəsənət tarixindən ayrılmazdır. 1998-ci il aprelin 12-də bütün mətbuat orqanları yazırdı: “Azərbaycan Prezidenti Heydər Əliyev Akademik Milli Dram Teatrında “Özümüzü kəsən qılınc” (“Göytürklər”) pyesinin ilk tamaşasında olmuşdur”.

Həmin tamaşadan sonra ulu öndər yaradıcı kollektivi təbrik edir və deyir: “Mən aktyorluq sənətinə az-çox bələdəm. Düzdür, sənətşünas deyiləm, ancaq bilirəm, - əgər ifa olunan əsər aktyorun sinəsinə düşməsə, onun ifası süni olacaqdır. Ancaq Bəxtiyar Vahabzadənin əsəri ilə rejissorun və aktyor truppasının harmoniyası pyesi gördüyümüz kimi meydana çıxardı. Ona görə də mən rejissorun, quruluşçu rəssamın, tamaşanın bütün iştirakçılarının yaradıcılıq fəaliyyətini çox yüksək dəyərləndirirəm”.

Azərbaycan Akademik Milli Dram Teatrının “Özümüzü kəsən qılınc” tamaşasını Ağakişi Kazımovun yaradıcılığında həqiqətən bir hadisə adlandırmaq olar. Məlum olduğu kimi, bu əsər əsarətə qarşı çıxan, yadelli işğalçılarla mübarizəyə qalxan xalqın istək və arzularının, idealının təcəssümü kimi səslənir. Əqidə sarsılmazlığı, dönməzlik, vətənpərvərlik, cəsarət və mənəvi yenilməzlik bu tamaşada olduqca aktual və müasir səslənir. Bir-biri ilə bağlanan hadisələr, söylənilən fikir və ifadələr, obrazların rəftar və niyyətləri o qədər təbii və təsirlidir ki, tamaşaçı səhnədə gördüyü Çin-Göytürk münasibətləri, çəkişmələri, vuruşmaları fonunda torpaqlarımızı zəbt edən, xalqımıza itki və faciələr gətirən işğalçı, məkirli qonşumuz olan erməniləri gözü önünə gətirməyə bilmir.

Teatrşünasların fikrincə, burada Ağakişi Kazımovun işi yalnız rejissorluq qabiliyyətinə, nikbin əhval-ruhiyyəli, monumental, tarixi qəhrəmanlıq tamaşası yaratmaq bacarığına görə deyil, həm də xeyrin şərdən çox güclü olduğunu göstərmək iqtidarına görə müsbət qiymətləndirilməlidir. O, müəllif fikrinin tamaşaçıya dəqiq və aydın çatdırılmasına çalışmışdır.

Görkəmli sənətkarın quruluş verdiyi 120-dən çox tamaşadan yalnız bir neçəsinə ötəri nəzər saldıq. Adıçəkilən tamaşalarla yanaşı, A.Kazımovun “Solğun çiçəklər” (C.Cabbarlı), “Hacı Qəmbər” (N.Vəzirov), “Bəxtsiz cavan” (Ə.Haqverdiyev), “Don hekayələri” (M.Şoloxov), “Toy”, (S.Rəhman), “Təzə gəlin” (S.Dağlı), “Vaqif” (S.Vurğun), “Gülməyən adam” (Əfqan), “Rəqabət” (B.Vahabzadə), “Əks-səda”, “Kiçik təpə” (N.Xəzri), “Məni qınamayın” (Hidayət), “Tartüf” (Molyer) və onlarca digər tamaşanın rejissoru olub. Hər uğurlu səhnə əsəri isə çalışdığı teatrların repertuarını zənginləşdirib.

Ağakişi müəllim yeganə Azərbaycan rejissorudur ki, Almaniya səhnəsində tamaşa qoyub. Üzeyir Hacıbəylinin “Arşın mal alan”ını, Bəxtiyar Vahabzadənin “İkinci səs”ini alman tamaşaçılarına göstərib və rəğbət qazanıb.

Ömrünün 80-ci pilləsində hörmətli sənətkarımız yaradıcılıq dolu günlərin, bol tamaşaçı alqışlarının, şan-şöhrət qazandığı illərin xoş xatirələri ilə üz-üzə dayanıb. Bu, ömrün elə bir yaşıdır ki, adətən insan geriyə boylanıb “İllər səndə nəyim qaldı?” deyir. Amma Ağakişi müəllim nikbinliklə sabaha, gələcəyə baxır. Biliyini, təcrübəsini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinə böyük səxavətlə, peşəkarlıqla öyrədir. Eyni zamanda, yeni tamaşalar səhnəyə qoymaq arzusu, istəyi ilə yaşayır. Bu nikbinliyin özü də rejissor Ağakişi Kazımov haqqında çox söz deyir.

***İradə ƏLİYEVA, “Azərbaycan”***